

*Ramiz*
*MÖVSÜM*

# SƏDAQƏTLİ RƏFİQƏLƏR

**(elegiya)**

*Tatyana Yuriyevnanın əziz xatirəsinə ithaf edirəm.*

*İnanmıram, elə qadın*
*bir də gələ Yer üzünə;*
*Həyat onu sınamışdı hər üzünə...*
*Duyğulara süzülürdü zərif səsi,*
*Ürəklərə məlhəm idi hər kəlməsi...*
*Xeyirxahlıq Tatyananın qayəsiydi!*
*Qarışqanı tapdamağa qoymazdı o,*
*Deyərdi ki, qabağından qaçın, getsin.*
*Hərdən milçək də gələrdi*
*çağrılmamış qonaq kimi...*
*Milçəyin də həyatına qıymazdı o,*
*Deyərdi ki, pəncərəni açın, getsin.*
*İlahinin yaratdığı hər nə varsa,*
*onun üçün əziz idi.*
*Yaradanın qarşısında alnı açıq,*
*vicdanı da təmiz idi.*
*Hər bir kəsin qayğısına qalardı o...*
*İradəsi güclü idi, canı zəif.*
*Dərdlilərin dərd yükünü*
*öz çiyninə alardı o...*
*Qəmli, küsgün baxışlara*
*təbəssümlü gözlərindən nur saçardı...*
*Çox həvəslə dibçəklərdə gül əkərdi.*
*Dibçəkdəki güllər kimi,*
*arzuları gül açardı...*
*Oğulları toy edəndə,*
*sevincindən qanadlanıb, o - uçardı!..*
*Hamı ilə səmimiydi, mehrliydi.*
*Deyərdi ki, gəlinlərim - qızlarımdı!..*
*Gəlinlər də Ona - Ana! - deyərdilər.*
*Haqlı sözdü: "Zər qədrini zərgər bilər".*
*İnsanlara tükənməyən*
*Sevgi vardı ürəyində.*
*Hər bir kəsə*
*xeyir-dua arzulardı diləyində.*
*Xəstə idi... Kefi bir az açılanda,*
*Zarafatdan qalmayırdı.*
*Onun şirin söhbətindən*
*doymaq mümkün olmayırdı...*
*Axır vaxtlar yaşamaqdan bezmişdi o,*
*Nə yuxusu vardı onun, nə iştahı...*
*Ümidini hər tərəfdən kəsmişdi o,*
*Tanrı idi son gümanı, son pənahı!..*
*Ağır mərəz şiddətini artıranda,*
*Bir dəfəyə neçə dənə həb atardı...*
*Səhhətindən gileylənib,*
*başqasının əhvalını korlamazdı.*
*Danışanda, sözlərinə bal qatardı...*
*Mələksima bu xanımın*
*gözlərində sevinc vardı, qəlbində qəm.*
*Sevinc - onu yaşadırdı, qəm - üzürdü;*
*O, qalmışdı "olum-ölüm" arasında.*
*Ürəyində həyat eşqi hey daşardı;*
*Gecə-gündüz o, ölümlə çarpışardı...*
*O, görünmək istəyirdi*
*insanların sırasında;*
*Çox heyif ki, yetişmədi atrzusuna...*
*Xasiyyəti ipək qadın,*
*incə qəlbli, çiçək qadın*
*ruzigarın hökmü ilə,*
*elə çiçək fəslində də*
*son nəfəsin alıb, getdi...*
*O, ömür-gün yoldaşından*
*çox nigaran qalıb, getdi...*
*Elə bildik qayıdacaq, qayıtmadı;*
*Bu nə uzun səfər oldu...*
*Bütöv ömür yaşamadı,*
*Yarı ömür yaşadı o,*
*Qalan ömrü zəhər oldu...*
*Kim deyər ki, o - həyatdan doyub, getdi?..*
*Fəridini, Eldarını gözüyaşlı qoyub, getdi...*

* * *

*Tatyananın məzarının önündəyik...*
*Neçə-neçə rəfiqəsi*
*dövrə vurub ətrafında,*
*gözüyaşlı dayanıblar...*
*Ürəkləri şan-şan edir nalə səsi!..*
*Hönkür-hönkür ağlayan qız -*
*Tatyananın iş yoldaşı İradədir.*
*Şivən salıb, fəryad edir...*
*Gözləri kor,*
*ayaqları şikəst, qoca bir qadın da*
*çəliyini tez-tez yerə vura-vura,*
*gəldi bura.*
*O da yazıq biçarənin*
*rəfiqəsi Gülüş idi.*
*Elə bil ki, göy titrədi, Yer tərpəndi,*
*Bu gəliş - nə gəliş idi?!*
*O, hamının diqqətini cəlb elədi...*
*Qadınların biri dedi:*
*- Gülüş xanım, maşınınız hanı sizin?..*
*Gülüş dedi: - Mən piyada gəlmişəm ki,*
*onun ruhu diksinməsin...*
*Tatyananın yoxluğuna*
*Gülüş dözə bilməyirdi,*
*İçi yanıb alışırdı!..*
*O, əyilib lap aşağı,*
*Tatyanaya nəsə dedi;*
*Ruhu ilə danışırdı...*
*Çəliyini yerə qoyub,*
*qəbrin ayaq tərəfində*
*o, dayandı dizi üstə.*
*Sonra enib üzü üstə,*
*mərmər daşa yapışdırdı dodaqların...*
*Öpüşlərə qərq elədi*
*Tatyananın "ayaqların..."*
*O, ağladı yana-yana,*
*Səsi düşdü qəbirstana...*
*Sona çatdı vida vaxtı.*
*...Nə etməli? Ölüm - haqdı!*
*Səbr etmək qalır bizə...*
*Hər bir insan əvvəl-axır ,*
*bura salır güzarını...*
*Hər kəs bilir: həyat - şirin, ölüm - acı.*
*Rəfiqələr gəlib öpdü*
*Tatyananın o mübarək məzarını...*
*Bir ağızdan söylədilər:*
*- Biz həmişə səninləyik,*
*Rahat uyu, əziz bacı!..*